## *Marketinq və kommunikasiya üzrə məsləhətçi - Vəzifə təsviri*

***Vəzifənin adı***: Marketinq və kommunikasiya üzrə məsləhətçi

***Tabe olduğu şəxs***: İdarəetmə Qrupunun rəhbəri

***Vəzifə haqqında ümumi məlumat:***

Marketinq və kommunikasiya üzrə məsləhətçi Dövlət Proqramı İdarəetmə Qrupunun bütün marketinq, ictimaiyyətlə əlaqələr, brendinq və rəqəmsal fəaliyyətlərini idarə edir. Bu rol kommunikasiya strategiyalarının hazırlanması və həyata keçirilməsini, məzmun yaradılmasını, ənənəvi və rəqəmsal mediada brendin vahidliyinin təmin edilməsini əhatə edir. Bundan əlavə, əməkdaş tədbirlərin və media ilə əlaqələrin koordinasiyası, ictimai rəyin təhlili, böhran zamanı kommunikasiya və tərəfdaşlarla əməkdaşlığa cavabdehdir.

***Əsas vəzifə və öhdəliklər***

***Marketinq və kommunikasiya fəaliyyətlərinin icrası:***

- Marketinq fəaliyyətlərini hədəf auditoriya və ictimaiyyətin marağını artıracaq şəkildə icra etmək;
- Xarici və daxili kommunikasiya işlərini idarə etmək, o cümlədən mətbuat açıqlamaları və rəsmi bəyanatları hazırlamaq;
- Nazirliklə kommunikasiyanın qurulmasını təmin etmək və dərc olunmuş materialların, tədbirlərin və digər PR fəaliyyətlərinin hesabatlarını hazırlamaq;
- Yeni ideyalar irəli sürərkən dövlət qurumları üçün müəyyən edilmiş tənzimləmələrə əməl olunmasını və ictimaiyyətə ünvanlanan məlumatların Nazirliyin kommunikasiya qaydalarına uyğunluğunu təmin etmək;
- Müsahibələrin, mətbuat konfranslarının və brifinqlərin vaxtında təşkili;
- Dərc olunan məlumatların düzgünlüyünə nəzarət etmək və mənfi media materiallarına operativ şəkildə cavab vermək.

***Rəqəmsal marketinq və məzmun yaradılması:***

- Sosial şəbəkələrin idarə olunmasına, vebsaytın yenilənməsinə və rəqəmsal kampaniyaların həyata keçirilməsinə nəzarət etmək;
- Sosial media paylaşımları, hesabatlar və mətbuat açıqlamaları da daxil olmaqla maraqlı məzmun hazırlamaq;
- Bütün rəqəmsal platformalarda brendin vahidliyini təmin etmək;
- Onlayn fəaliyyətə nəzarət etmək və sosial şəbəkələrdə verilən rəylərə operativ şəkildə cavab vermək;
- Müsahibə qeydlərini idarə etmək və arxivləşdirmək, həmçinin məlumatların strukturlaşdırılmış bazasını formalaşdırmaq.

***Tədbirlərin təşkili və tərəfdaşlarla iş:***

- Tədbirlər, konfranslar və marketinq kampaniyalarını planlamaq və həyata keçirmək;
- Tədbirlərin keçirilməsi üçün təchizatçılar və xidmət təminatçıları ilə əməkdaşlıq qurmaq;
- Təqaüd imkanlarının effektiv şəkildə təbliği üçün daxili komanda ilə işləmək;
- Maliyyə şöbəsi ilə əməkdaşlıq edərək PR və marketinq büdcələrini müəyyənləşdirmək.

***Strateji planlama və böhran kommunikasiyası:***

- Rəhbər heyət və həmkarlarla fikir mübadiləsi aparmaqla marketinq strategiyalarının inkişafına töhfə verməк;
- PR və kommunikasiya sahəsi ilə bağlı normativ dəyişikliklərdən xəbərdar olmaq;
- Mediada baş verən yeniliklərə operativ reaksiya vermək, ictimai etimadı gücləndirmək və qurumun müsbət imicini qorumaqla reputasiyanın effektiv idarə olunmasını təmin etmək;
- Kommunikasiya proseslərinin təkmilləşdirilməsi və avtomatlaşdırılması təşəbbüslərini dəstəkləmək.